

* * *

Varsa doğru sözə həvəs səndə
"Kəlniyət", durma gəl bizim kəndə.
Üç nəfər düz adam sənə tanıdım:
Hac Xasay, hac Səməd, Əlibəndə.
Heç Biri öz tüpürdüyün yalamaz,
Verdiyi sözləri geri alamaz.

1912

* * *

Telqraf gündə verir xalqa xəbər
Balkan əhvalına dair yalanı.
Döndərib bir sürü dilsiz qoyuna
Türklərin əsgəri tək aslanı.

Yetişir Sofiyadan tazə xəbər,
Getdi bolqar qoşunu çox irəli.
Bir deyən yoxdu, canım, boylə isə
Qırx kəlisanı neçün verdi geri?

1912

* * *

"Ruskoye slovo", "Novı vremya"
Balkandakı vulkanları yandırır,
Dəm vurarkən insaniyyətdən bu əsr,
Qüruni-vüsəta vəhşiyyəti andırır.

Balkandakı müharibəyə Menşikov bu gün
"Hürriyyəti-əzimə" – deyə qoymuş ad neçün?
"Yekdigərə məhəbbət ediniz!" əmr edib Məsih,
Etmir bu qövli-əqdəsə bəs etiqad neçün?

Qəzetlərin iyrənc yalanlarından
İnsan olan kəsin könlü bulanır.
Şaqqıldadır damağını Menşikov,
Turşu yemiş kimi ağzı sulanır.

1912

* * *

Var idi heç olmasa Şirvanda beş-üç il qabaq
Məscidin cünbündə tək bir əhli-sünni məktəbi.
Şiə, sünni birləşib batinləri birləşməmiş
Ooydular adın onun haşa "Üxüvvət" məktəbi.
Ortaya çıxdı balıq, xərçəng, ördək yoldaşı,
Mollalar bilməm dağıtdı, ya cəmaət məktəbi.

1912

* * *

Telqraf müxbiri şərm eyləməyir,
Döndərib aslana balkanlıları.
Tutdurur sərçə kimi minlər ilə
Hər vuruşda yazıq osmanlıları.

Balkanlılar müttəfiqən çalışır
Rum elinin tutanda bir köyünü.

Telqrafçı deyir: “On şəhr alındı!”
Allah yıxsın yalançının evini.

1912

* * *

Bölgü-bölgü olmuş bu gün Türkiyə:
Bir dəstəsi məşrutiyyət istəyir.
Bir firqəsi istiqlaliyyət sevir,
Bir dəstəsi cümhuriyyət istəyir.
Heç kəs düşünmür kim, bu firqəbazlıq
Məğlubiyyət, məqhuriyyət istəyir.

1912

ATA ÇIXAN AĞACI OĞUL BUDAQ-BUDAQ GƏZƏR

Dünən gecə bikar qaldığıma görə durdum ayağa, bayır-bucaq paltarımı geyib başımı bulaya-bulaya qətiteyyi-mənzil edib getdim yetişdim kluba. Gördüm üç cüt bir tək müsəlman “ürəfaları” var. Bunların bir hissəsi qumar və bir hissəsi içkiyə məşğuldur. Burası təəccüblü bir şey deyildir. Çünki indi içki içməmək və qumar oynamamaq eyibdir. Buna sözümüz yox: fəqət bir şey məni təəccübləndirdi. İçki stolunun başında əyləşənlərdən birisinin altı yaşında oğlu da yanında vardı. Atası oğlu üçün stəkana pivə töküb qabağına qoyduqda oğlu ona protest eləyib çığırdı: Yox, ata, mən pivə içməyəcəyəm, mən şərab içəcəyəm. Nə isə, stəkanı atası doldurdu. Uşaqcığın, inan ki, əli tutmurdu, gücü çatmırdı stəkana. Xülasə, kəmali-iştəha ilə nuş elədi. Bunu gördükdə dedim, bəli, bizim yevropalaşmağımız elə belə olar... “Ata çıxan ağacı oğul budaq-budaq gəzər”. İndi bu məsum balanın görünüz ki, gələcəyi necə parlaq və ziyalı bir isan olacaqdır. Bizlərin içki məclisimizi görənlər bilər ki, nə qədər ədəbli-ədəbli sözlər orada danışılır

və elə uşaqların tərbiyəsinə nə qədər faydası var. O cümlədən haman saat orada oturan ağalardan birisini gördüm, ayağa durub, tufana tutulmuş gəmi kimi valaylıya-valaylıya papağını da əyri qoyduğu halda mənə xitabən: – Ağa Şeyx Şeypur! Şairin bir beyti bu saat xatirimə düşdü – dedi:

"Nihali-sərvdir qaşın nun ol nihal üzrə,

Misali-nöqteyi-nun xalın ol müşkin hilal üzrə".


...Yaxşı, bircə de görüm qaşın nunə nə şəbahəti?

Nunun ağzı yuxarı, amma əyri qaşın ağzı aşağa, bunda heç bir münasibət görmürəm.

– Ha ha ha... – dedim – bəli, bəli, afərin sənin bu zirəkliyinə, çox yaxşı anlamısan. Yəni taxsır səndə deyil, şairlərimizdədir. O elə deməsəydi, sən də belə deməzdin. Türkün bir misalı var: "Ata çıxan ağacı oğul budaq-budaq gəzər". Hə, indi qulaq as, mən də sənincün birisini deyim:

– Yüz il bundan müqəddəm nemsə şairlərindən məşhur Şiller "Eşqiyalar" adlı faciəsində bir bahadırın dilindən deyir: "Nə hiddətlənirsən, deyəsən gedib türkləri Yevropadan çıxaracaqsan". Odur ki, indi Yevropanın yetişmiş uşaqları da həmin sözləri küçələrdə deyirlər! Pəs keçmiş rəhmətliklər yaxşı demişlər ki, "Ata çıxan ağacı oğlu budaq-budaq gəzər".

1912



DOSTUM MİRZƏ ABDULLA ŞAİQ CƏNABLARINA

Şaiqa, neyləsin axır, söylə, biçarə vətən?
Tapmayır səhhət üçün dərdinə bir çarə vətən.
Yoxdur ümmidi-şəfa hali-pərişanında,
Oxşayır çox belə bir xəstəvü bimarə vətən.
Vətən oğlanları müstəğrəqi-xabi-qəflət,
Tuş olubdur neçə min zalimi-xunxarə-vətən.
Doğranıb tiği-cəfa ilə mübarək bədəni.
Çəkilib zülm ilə Mənsur kimi darə vətən.
Ucalıb göylərə ətfali-vətən fəryadı,
Qan ilə yazmış "ənəlhəq" dərüdivarə vətən.
Vətən övladı ki, qəflətdə yatıbdır şəbü ruz,
Şaki olmaz, nə əcəb, Əhmədi-muxtarə vətən.
Hanı Faruqi-müəzzəm, hanı ol əzmi-qəvim –
Ki, kəramət ilə qalib ola əşrarə vətən?
Hanı ol şiri-xuda kim, özü yetsin dadə,
Dinü millət gedir əldən, yanır odlara vətən?
Hanı Bağdad kütubxanəsi, Harun dövrü –
Ki, təvəffüq edə islam ilə küffarə vətən?
İbni-Xəldun, hanı Əllamə, hanı ibnər-Rüşd?
Fəxri-Razi hanı razın deyə ol yarə vətən.
İbni-Sina hanı, Sədra hanı, Firdovsi hanı –
Ki, mübahət edə bu əsrdə onlara vətən?!
Bəradər!
Biz əgər olsa idik ayeyi-qurana müti.
Olmaz idik belə sərgəştəvü avarə vətən.
Yenə bu dərdlərin çarəsi Bakidən olur.
Çeşmi-ümmid tutubdur ora həmvarə vətən.
Dəm o dəmdir ki, vuraq dəmi-ünsiyyət,